TƏSDİQ EDİLMİŞDİR
Azərbaycan Respublikası
Səhiyyə Nazirliyi
Farmakoloji və Farmakopeya
Ekspert Şurasının sədri

_______________ E.M.Ağayev

"_21_"_Aprel_________ 2015-cu il

Dərman vasitəsinin istifadəsi üzrə təlimat (xəstələr üçün)

**ESSENSİAL® FORTE H** kapsullar
ESSENSIALE® FORTE H

**Tərkibi**
Təsiredici maddə: 1 kapsulun tərkibində 300 mq 76% xolindən ibarət olan soya paxlası fosfolipidi vardır.
*Köməkçi maddələr*: bərk piy, soya yağı, gənəgərçək yağı, etanol 96%, etilvanilin,1-(4-metiksofenil) etanon, alfa-tokoferol, jelatin, təmizlənmiş su, titan 4-oksid (E171), sarı dəmir oksidi (E172), qara dəmir oksidi (E172), qırmızı dəmir oksidi (E17), natrium laurilsulfat.

**Təsviri**
Sarımtıl-qəhvəyi rəngli, pasta şəkilli, yağlı möhtəviyyatı olan, bərk, qeyri-şəffaf, qəhvəyi rəngli,uzunsov jelatin kapsullar.

**Farmakoterapevtik qrupu**
Hepatoprotektor..
**ATC kodu**:A05C

**Farmakoloji xüsusiyyətləri**
Essensial fosfolipidlər qaraciyər hüceyrə orqanelləri və hüceyrə qişası üçün əsas quruluş elementi hesab olunur. Lipidlərin və zülalların metabolizminə və qaraciyərin dezintoksikasiyaedici funksiyasına (qaraciyərin hüceyrə quruluşunu və fosfolipidlərdən asılı enzimatik sistemi bərpa edir və saxlayır; qaraciyərdə birləşdirici toxumanın əmələ gəlməsini tormozlayır) normallaşdırıcı təsir edir.

**İstifadəsinə göstərişlər**
Xroniki hepatit, qaraciyərin sirrozu, qaraciyərin müxtılif etiologiyalı piy degenerasiyası, qaraciyərin toksik zədələnməsi, hamiləlik toksikozu, psoriaz (köməkçi müalicənin tərkibində), radiasion sindrom.

**Əks göstərişlər**
Preparata qarşı fərdi dözümsüzlük.

**Digər dərman vasitələri ilə qarşılıqlı təsiri**
Bu vaxta qədər məlum deyil.

**İstifadə qaydası və dozası**
Müalicə müddəti 3 aydan az olmamalıdır. Zərurət olduqda müddət uzadıla və müalicə kursu

təkrarlana bilər.
2 kapsul olmaqla gündə 2-3 dəfə yemək vaxtı daxilə qəbul olunur. Kapsul bütöv halda su ilə içilməlidir.

**Əlavə təsirləri**
Preparat adətən xəstəələr tərəfindən yaxşı qəbul olunur, lakin bəzən qarında diskomfort, allergik reaksiyalar yarana bilər.

**Buraxılış forması**
10 kapsul, PVX/alüminium folqadan ibarət blisterlərdə. 3 blister (30 kapsul) içlik vərəqə ilə birlikdə karton qutuya qablaşdırılır.

**Saxlanma şəraiti**
21ºC-dən yuxarı olmayan temperaturda və uşaqların əli çatmayan yerdə saxlamaq lazımdır.

**Yararlılıq müddəti**
3 il.
Yararlılıq müddəti bitdikdən sonra istifadə etmək olmaz.

**Aptekdən buraxılma şərti**
Reseptsiz buraxılır.

**İstehsalçı**
A.Nattermann & Cie QmbH
Nattermannallee 1,D-50829 Köln,Almaniya.